**Azərbaycan Respublikası**
**İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın)**
**1990-cı il 20 Yanvar faciəsinin 21-ci ildönümü ilə əlaqədar**

# B Ə Y A N A T I

Sovet imperiyasının Azərbaycana qarşı genosid siyasətinin tərkib hissəsini təşkil edən, insan hüquq və azadlıqlarının kütləvi pozulması ilə nəticələnmiş və tarixə 20 Yanvar faciəsi kimi düşmüş o qanlı gecədən iyirmi bir il keçir. XX əsrdə törədilmiş ən qanlı terror aktlarından biri olan bu faciədə Azərbaycan xalqına qarşı işlədilmiş cinayət, əslində bütün bəşəriyyətə, humanizmə, ümumən insanlığa qarşı həyata keçirilmiş müdhiş bir əməldir. Zorakılığın, qeyri-insani rəftarın, işgəncələrin ən dəhşətlilərindən biri olan bu müdhiş hadisə xalqımızın qan yaddaşına əbədi həkk olunmuş, Azərbaycanın istiqlaliyyət yolunun ilk şəhidlik zirvəsi kimi tariximizə həm də qürur günü kimi yazılmışdır.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Sovet imperiyası rəhbərlərinin göstərişi ilə tərkibində milliyyətcə erməni zabitlərinin də olduğu xüsusi hərbi birləşmələr və zirehli texnika Bakı və Sumqayıt şəhərlərinə, habelə Azərbaycanın bir çox bölgəsinə yeridilmişdi. Tanklar və digər zirehli döyüş maşınları dinc əhaliyə xüsusi qəddarlıq və misli görünməmiş vəhşiliklərlə divan tutmuş, qarşılarına çıxan hər şeyi məhv etmişdir. Öz torpaqlarının müdafiəsi naminə mübarizəyə qalxmış yüzlərlə silahsız insan, o cümlədən yaşlılar, qadınlar və uşaqlar atəşə tuş gəlmiş, qətlə yetirilmiş, yaralanmış, itkin düşmüş, inzibati binalara, yaşayış evlərinə, nəqliyyat vasitələrinə ciddi zərər vurulmuşdur. İnsanlıq simasını itirmiş hərbi canilər həlak olanların dəqiq sayını gizlətmək üçün onların cəsədlərini belə məhv etmişlər. Bakıda fövqəladə vəziyyətin elan olunması haqqında məlumat isə əhaliyə yalnız ertəsi gün səhər Sovet imperiyasının Bakıda təmsilçisi olan hərbi komendantı tərəfindən bildirilmişdi.

SSRİ Müdafiə və Daxili İşlər nazirliklərinin, Dövlət Təhlükəsizlik Komitəsinin birgə həyata keçirdiyi hərbi əməliyyat nəticəsində bir neçə istiqamətdə Bakıya daxil olan silahlı qoşunlar təkcə paytaxtda 130-dan artıq mülki şəxsi amansızcasına öldürmüş, 600-dən çox adam yaralanmış, ölçüyəgəlməz dağıntılar törədilmişdir. Hücum zamanı qadağan edilmiş güllələrdən istifadə olunmuş, hətta yaralıları çıxaran təcili tibb yardımı maşınlarına və həkimlərə atəş açılmış, onlarla tibb işçisi yaralanmış, şəhid olmuşdur.

Sovet dövləti beynəlxalq hüquq normalarını və SSRİ Konstitusiyasını pozaraq Azərbaycana qarşı misli görünməmiş hərbi təcavüz edərək insanların ən ali hüququ olan yaşamaq hüququnu kütləvi şəkildə pozmuşdur.

Bu faciə bəşər tarixində dövlətin öz vətəndaşlarına qarşı törətdiyi ən ağır cinayətlərdən biri, misilsiz vəhşilik nümunəsi, insanlığa qarşı yönəlmiş aksiya kimi Sovet hakimiyyətinin bədnam tarixinin qara səhifələrindəndir. Azərbaycanda öz hökmranlığını təsdiqləmək niyyətində olan imperiyanın amansızcasına törətdiyi qırğın əks-nəticə vermiş, xalqımız müstəqillik uğrunda inadlı mübarizəsini daha da gücləndirmiş, öz qətiyyətini nümayiş etdirmişdir.

Həmin faciəyə siyasi-hüquqi qiyməti ilk olaraq Ümummilli lider Heydər Əliyev vermişdir. Böyük cəsarət nümayiş etdirən Heydər Əliyev hələ 21 yanvar 1990-cı il tarixdə Azərbaycanın Moskvadakı Daimi nümayəndəliyinə getmiş, dünyanın çoxsaylı KİV nümayəndələrinin qarşısında bu dəhşətli hadisəyə münasibətini bildirən kəskin bəyanatla çıxış edərək, Bakıda törədilən qırğınların təşkilatçılarını cinayətkar adlandırmış, baş verənlərə siyasi qiymət verilməsini, günahkarların cəzalandırılmasını qətiyyətlə tələb etmişdir. Şəhidlərin xatirəsini əbədiləşdirmək üçün həmin tarixi Milli Matəm günü kimi elan etmiş Ulu öndərin təşəbbüsü ilə ilk dəfə olaraq Milli Məclis tərəfindən bu hadisəyə rəsmi siyasi və hüquqi qiymət verilmiş, həmin faciənin Azərbaycan xalqının azadlıq və müstəqillik mübarizəsinə divan tutmaq üçün törədildiyi bəyan edilmişdir.

Hər il ölkəmizdə 20 Yanvar -- Ümumxalq Hüzn günü kimi qeyd edilir və xalqımız igid övladlarının fədakarlığını ehtiramla yad edir, paytaxtda və bölgələrdə silsilə tədbirlər həyata keçirilir, dövlət başçısının müvafiq Sərəncamlarına əsasən, şəhid ailələrinə Prezident təqaüdü verilir. Şəhərimizdəki əzəmətli Şəhidlər xiyabanı xalqımızın müqəddəs and yerinə, ziyarətgaha çevrilmiş, bu qanlı hadisəni törədənləri ittiham edən bir abidədir. Ölkəmizə qədəm qoyan xarici qonaqlar, ictimai-siyasi xadimlər, beynəlxalq qurumların nümayəndələri hər dəfə xiyabanı ziyarət etdikcə xalqımıza qarşı qətliamı törədənlərin mənfur əməllərinin bir daha şahidi olur, Azərbaycan həqiqətləri, o cümlədən bu qanlı faciə ilə bağlı məlumat əldə edirlər.

Sovet imperiyası bu cinayətlə eyni zamanda Ermənistanın azğınlaşmış siyasi qüvvələrinə dəstək vermiş, nəticədə Azərbaycana qarşı həyata keçirilən uzunmüddətli erməni təcavüzü, etnik təmizləmə, soyqırımları, ölkəmizin ərazi bütövlüyünə qəsd baş vermiş, torpaqlarımızın 20 faizi zəbt edilmiş, Ermənistan ərazisindən, Dağlıq Qarabağ və ətraf yeddi rayondan əhali zorla qovulmuş, soydaşlarımızın bir milyon nəfəri öz doğma yurdundan didərgin düşərək qaçqın və məcburi köçkünə çevrilmişdir.

Bütün tərəqqipərvər bəşəriyyətin, xalqların sülhə, əmin-amanlığa, inkişafa can atdığı hazırki dövrdə Ermənistan dövləti, təəssüf ki, bu gün də etnik təmizləmə, terror, zorakılıq siyasəti yürüdür, bununla da bütövlükdə Cənubi Qafqazda, Avropa məkanında sülhyaratma və sabitlik proseslərinə mənfi təsir göstərir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bu münaqişənin sülh yolu ilə həllində daim səylər göstərir.

Avropa Komissiyasının sədri X.M.Barrozunun bu günlərdə Bakıya səfəri çərçivəsində keçirilmiş mətbuat konfransında dövlət başçısı Azərbaycanın ərazilərinin uzun müddətdən bəri Ermənistanın işğalı altında olmasının bir çox narahatlıqlar doğurduğunu, bunun regional təhlükəsizliyə potensial hədə olduğunu, məlum münaqişə ilə bağlı Avropa Parlamentinin ötən il Qətnamə qəbul etdiyini, bu sənədin BMT-nin, Avropa Şurasının və digər nüfuzlu beynəlxalq qurumların qətnamələrinə uyğun olduğunu diqqətə çatdırmış, münaqişənin tezliklə həllinin azərbaycanlı qaçqın və məcburi köçkünlərin öz yerlərinə qaytaracağını, bütün dünya tərəfindən tanınmış ərazi bütövlüyümüzün bərpasına gətirib çıxaracağını, regiona təhlükəsizlik gətirəcəyini vurğulamışdır.

Avropa Komissiyasının sədri artıq bu məsələnin həllinin sülh yolu ilə təmin edilməsi vaxtının çoxdan yetişdiyini, Avropa İttifaqının da bununla bağlı öz səylərini göstərdiyini bildirmişdir.

Bu günlərdə Avropa Şurası Parlament Assambleyasının sessiyasında Dağlıq Qarabağ münaqişəsinin həlli mövzusu yenidən gündəliyə gətiriləcək, azərbaycanlı qaçqın və məcburi köçkünlərin pozulmuş hüquqlarının bərpası məsələsi qaldırılacaqdır.

Göründüyü kimi, hazırda nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən Ermənistan təcavüzkar dövlət kimi tanınır, işğal edilmiş Azərbaycan ərazilərinin geri qaytarılması, ərazi bütövlüyünün bərpası tələb olunur. Artıq dünya ictimaiyyəti qəbul edir ki, Azərbaycan tərəfi haqlıdır, onun ərazi bütövlüyü bərpa olunmalı, qaçqın və məcburi köçkünlər öz yurdlarına qayıtmalıdır.

Müasir beynəlxalq hüququn ən mühüm nailiyyətlərindən biri insan hüquq və azadlıqlarının müdafiəsinin dövlətlərarası əməkdaşlıq səviyyəsinə çıxarılması, beynəlxalq təminatların yaradılmasıdır. Bununla da insan hüquqları dövlətlərin sırf daxili səlahiyyətləri çərçivəsindən çıxaraq, beynəlxalq əhəmiyyət kəsb edir. 20 Yanvar 1990-cı il tarixdə dinc əhaliyə qarşı həyata keçirilən qətliam zamanı, insanlıq əleyhinə törədilmiş dəhşətli əməl nəticəsində BMT-nin İnsan Hüquqları haqqında Ümumi Bəyannaməsinin, habelə insan hüquqlarına dair beynəlxalq hüquqi sənədlərin müddəaları kobud şəkildə pozulmuşdur. Bu da təqsirkar şəxslərin beynəlxalq hüquqi məsuliyyətə cəlb olunmasını zəruri edir. Lakin qanlı faciəyə bu günə kimi beynəlxalq hüquqi qiymət verilməmişdir.

BMT-nin Baş katibi Pan Gi Mun bu günlərdə rəhbərlik etdiyi qurumun 2011-ci il üzrə prioritetlərini bəyan etmişdir. Həmin prioritetlər sırasına insan hüquqları, davamlı inkişaf, humanitar böhranların aradan qaldırılması, daha təhlükəsiz dünyanın yaradılması da daxildir.

İnanırıq ki, ki, dünya ictimaiyyəti, beynəlxalq təşkilatlar məhz bu prioritetləri nəzərə alaraq, Azərbaycanın haqlı tələblərini dəstəkləyəcək, xalqımıza qarşı törədilmiş, əvvəlcədən düşünülmüş, antihumanist, antidemokratik, insan hüquqlarının kobud və kütləvi şəkildə pozulması ilə müşayiət olunmuş bu dəhşətli cinayət tezliklə beynəlxalq hüquqi qiymətini alacaq, cinayətkarlar tarix, bəşəriyyət, eləcə də Azərbaycan xalqı qarşısında cavab verəcək, cəzasız qalmayacaqlar.

Xalqımız 20 Yanvar faciəsi qurbanlarının milli azadlıq mübarizəsi uğrunda nümayiş etdirdiyi birliyi heç vaxt unutmur, ərazi bütövlüyünün bərpası ilə bağlı öz qanuni tələbində israrlıdır, ölkəmizin bugünü və gələcəyi, davamlı inkişafı taleyüklü məsələlərin həlli, qanunun aliliyi, insan hüquqlarının müdafiəsi, dövlətimizin daha qüdrətli olması naminə öz milli həmrəyliyini daha da möhkəmləndirəcəkdir.

**Elmira Süleymanova**
Azərbaycan Respublikasının
İnsan Hüquqları üzrə Müvəkkili
(Ombudsman)

**18 yanvar 2011-ci il**

Bəyanat BMT-nin Baş Katibinə, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarına, Avropa Komissiyasına, Avropa Şurasına, ATƏT-ə, Beynəlxalq və Avropa Ombudsmanlar İnstitutlarına, Asiya Ombudsmanlar Assosiasiyasına, Beynəlxalq Sülh Bürosuna, Universal Sülh Federasiyasına, müxtəlif ölkələrin ombudsmanlarına, Azərbaycan Respublikasının xarici ölkələrdəki və xarici ölkələrin respublikamızdakı səfirliklərinə, Azərbaycanın diaspor təşkilatlarına ünvanlanmışdır.